YAŞAR QARAYEV GÖRKƏMLİ ŞƏXSLƏR HAQQINDA

"Heydər Əliyev dərsləri"nin yeniyetmələrimizin Ulu Öndərin irsinin yaxından öyrənməsində müstəsna əhəmiyyəti var.

***

C. Məmmədquluzadə yalnız böyük satirik deyildir, böyük Molla Nəsrəddinin həm qəlbində, həm də qələmində həzin bir lirika və işıqlı romantika da var. O, muğama pərəstiş etmiş, Üzeyirlə yanaşı Motsartı, Bethoveni, Qlinkanı, Şuberti çox sevmiş, onlar barədə yazılara öz dərgisində yer ayırmışdır. Hətta sənətşünaslıq janrında "Elmi musiqi" adlı ayrıca elmi bir əsər də yazmışdır.

***

Hüseyn Cavidin romantizmi XX əsr Azərbaycan ədəbiyyatının mürəkkəb, çoxşaxəli və zəngin gedişində öz səsi və nəfəsi ilə seçilən qanunauyğun və əlamətdar bir hadisə kimi bugün də öz məna və əhəmiyyətini saxlamaqdadır.

***

Azərbaycan xalqının ictimai-tarixi və ədəbi-mədəni həyatında ***Mirzə Fətəli Axundzadə*** ayrıca bir mərhələni təşkil edir. Peşəkar milli teatr sənətinin, realist bədii nəsrin, demokratik fəlsəfi və estetik fikrin, ilk əlifba inqilabının, ümumiyyətlə, mənəvi mədəniyyətimizin bütün sahələrində "yeni dövrün" banisi olan Axundzadənin zəngin və çoxcəhətli yaradıcılığı lokal milli çərçivələri aşıb keçir, türk, islam xalqları miqyasında ümumşərq və ümumbəşəri bir tarixi məna və əhəmiyyət kəsb edir.

***

Cəfər Cabbarlı yeni epoxanı, bu epoxanın keçmişi unudan və tamamilə bugünə qaynayıb-qarışan gənc olan və qızlarını bitkin obrazlar kimi qələmə alır. Lakin onun öz obrazını keçmişdən ayırmağa və yalnız bu gündə təhlil etməyə ixtiyarımız yoxdur... Ümumiyyətlə, Cabbarlı ən çox və ətraflı tədqiq edilən klassiklərimizdəndir. Ədəbiyyat elmimizin bir sıra ən mühüm elmi-nəzəri nailiyyətləri onun adı ilə bağlıdır.

***

XX əsr Azərbaycan şeirində romantizm cərəyanının ən qüdrətli nümayəndələrindən biri ***Məhəmməd Hadidir.*** ... Keşməkeşli və faciəvi sonluqla bitən bir ömür sürmüş Hadi türk, Şərq və Avropa ədəbiyyatlarını, fəlsəfəsini dərindən mənimsəmiş və bütün bu təsirləri şeirlərində yaradıcı şəkildə əks etdirərək, orijinal şair kimi ədəbiyyat tariximizdə özünə yer tutmuşdur.

***

Görkəmli tənqidçi və ədəbiyyatşünas ***Kamal Talıbzadə*** otuz ilə yaxındır ki, ədəbi tənqidlə ardıcıl və müntəzəm şəkildə məşğul olur. Müasir ədəbi tənqidin tarixi və nəzəriyyəsi, onun professional və sənətkarlıq vəziyyətini, metodologiyası və poetika problemləri bir mütəxəssis kimi, onun elmi-ədəbi marağının istiqamətini və daimi, dəyişməz hədəfini təşkil edir.

***

İlyas Əfəndiyev sevgi süjetini və lirik etiraf üslubunu sevir. Onun bir neçə romanı və çoxlu hekayəsi birinci şəxsin – gənc və sevən bir aşiqin dilindən yazılmışdır. İlyas Əfəndiyevin öz yaradıcılığı da bütünlükdə belədir: eyni bir aşiqin dilindən söylənilən eyni məhəbbətin etirafıdır. Bu

aşiq sevən və sevilən ədibin özü, bu məhəbbət isə oxucuya, xalqa etiraf olunan yazıçı və vətəndaş məhəbbətidir...

***

Maarifçi dramaturgiyanın inkişafında yeni mərhələ hamıdan əvvəl ***N.Vəzirovun*** yaradıcılığı ilə başlayır. Vəzirov maarifçi dramın təkcə ideya hüdudları yox, həm də həyatı əhatə çərçivəsini genişləndirir, səhnədə ictimai geriliyin tənqidini və realist-maarifçi didaktikanın hüdudlarını böyüdür.

***

Qasım Qasımzadənin poeziyası onun şəxsiyyətinə bənzəyir: sərt və kövrək, sakit və çılğın, təbii və məğrur, milli və beynəlmiləl...

***

"Gəlimli-gedimli dünya, son ucu ölümlü dünya" – bu kəlamı və ovqatı Qorquddan sonra bu qədər tutarlı şəkildə ifadə edən uğurlu bədii misralara çox az nümunə gətirmək olar...

... Həqiqətən yaddaş – ağrı səviyyəsində dərk olunmuş vəhdət və bütövlüyün özüdür. Yalnız yaddaş olan yerdə tamlıq var, əsrlər və nəsillər arasında bağlılıq var.

Əsl, həqiqi, böyük Poeziya olan ***Məmməd Araz*** sözü də düşüncədə, əxlaqda və qeyrətdə belə yaddaşın şeirdə ifadəsidir.